**FİLOLOGİYA FAKÜLTƏSİ**
**AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ İXTİSASI ÜZRƏ**
**FƏNLƏRİN TƏLİM NƏTİCƏLƏRİ**

| | |
|---|---|
| **ÜF-B02**<br><br>Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | **FTN 1**. Azərbaycan dilində şifahi və yazılı ədəbi dil normalarına (tələffüz qaydaları, sözdən istifadə, qrammatika, üslubiyyat), həmçinin ünsiyyətin müxtəlif situasiyalarında, nitqin məqsəd və məzmununa uyğun şəkildə ünsiyyət prosesini təşkil edir.<br>**FTN 2**. Müvafiq kommunikativ vəziyyətlərdə düzgün danışmaq və yazmaq üçün söz və ifadələrin üslub ənənələrini fərqləndirir.<br>**FTN 3.** Dil normalarına (fonetik, leksik, qrammatik), etik və kommunikativ normalara riayət edərək ünsiyyətin ritorik qanunlarını bilir və əməli surətdə tətbiq edir.<br>**FTN 4**. Sosial şəbəkələrdən istifadə qaydaları və bu sahədə lazımi məqamlar haqqında mühakimə yürüdür, qarşı tərəfi anlaması, onun elm və təhsil məkanına inteqrasiya edilməsini izah edir, gündəlik işgüzar şəraitdə nitq etiketləri formullarını fərləndirir.<br>**FTN 5.** Həmkarları ilə psixoloji əlaqə yaratmaq, ünsiyyət prosesində dəqiq qavrama və anlama, qarşı tərəfin davranışını proqnozlaşdırmaq, bu davranışı istənilən səmtə yönəltməyə imkan verən kommunikativ mədəniyyət nümayiş etdirir.<br>**FTN 6.** Akademik kommunikasiyada nəzakətlilik, ədəblilik, mərifətlilik, təvazökarlıq, xeyirxahlıq kimi mənəvi tələblərə riayət edir, öz hisslərini ifadə etmək və başqalarının emosional təsirlərini qəbul etmək bacarığını tətbiq edir. |
| **İF-B05**<br><br>Dilçiliyə giriş | **FTN 1.** Dünyada dilçiliyin yaranması, formalaşması tarixini öyrənir, dünya elmləri sistemində dilçiliyin mövqeyini və kontaktlarını müəyyənləşdirir;<br>**FTN 2.** Dil sistemini stratifikasion öyrənir, dilçiliyin sahələri və şöbələrini müəyyən edir, inteqrativ əsasda şöbələr üzrə nəzəri və praktik vərdişlərə nümayiş etdirir;<br>**FTN 3.** Dil sistemlərini və onların inkişafında daxili və xarici faktorların paradiqmasını müəyyən edir;<br>**FTN 4.** Cəmiyyətin inkişafının dilə təsiri, dil əlaqələri, dilin təfəkkürlə, siyasətlə, mədəniyyətlə qarşılıqlı əlaqəsini, dil normalarını dərk edir sosial həyata tətbiq edir;<br>**FTN 5.** Dünya dilçiliyi sistemində Azərbaycan dilçiliyini və dünya dilləri sistemində Azərbaycan dilinin mövqeyini, rolunu müəyyənləşdirir;<br>**FTN 6.** Müasir beynəlxalq interaktiv metodlarla, yeni linqvistik üsullarla tanış olur və sinkretik, inteqrativ mövzuların təqdimatını hazırlayır. |
| **İF-B06.1**<br><br>Müasir Azərbaycan dili - 1 | **FTN 1.** Azərbaycan dilinin fonemlər sistemini, nitqin fonetik parçalarını, fonetik hadisələri izah edir;<br>**FTN 2.** Fonetik transkripsiyanın dildə rolunu şərh edir;<br>**FTN 3.** Vurğu və onun növlərini, avazlanmanı (intonasiyanı), orfoqrafiya qaydalarını və prinsiplərini, orfoepiya qaydalarını şərh edir;<br>**FTN 4**, Fonetik hadisə və qanunları müqayisə edir, bir-birindən |

| | |
|---|---|
| | fərqləndirir və təhlil edir;<br>**FTN 5.** Səs, heca, qitə və ibarə kimi fonosinqmentlərin köməyi ilə fonetikanın digər elmlərlə bağlı sahələrinə inteqrasiyasını sintez edir;<br>**FTN 6.** Fonemlər sistemini, yazı, əlifba və qrafikanı, ədəbi tələffüz mənbələrini sərbəst şəkildə ayıraraq təhlil edir. |
| **İF-B06.2**<br><br>Müasir Azərbaycan dili - 2 | **FTN 1.** Azərbaycan dilinin lüğət tərkibnin xarakterik xüsusiyyətlərini şərh edir;<br>**FTN 2.** Lüğət tərkibinin əsas və əlavə, aktiv və passiv hissələrini, zənginləşmə mənbələri və yolları haqqında məlumatları əlaqələndirir;<br>**FTN 3.** Sözlərin mənşəyinə görə növlərini müqayisə edir, oxşar və fərqli xüsusiyyətlərini şərh edir;<br>**FTN 4.** Tələbə dilin lüğət tərkibində olan sözlərin işlənmə dairəsinə və işlənmə xüsusiyyətinə görə növlərini qruplaşdırır, faktlar seçir, toplanmış və onları tətbiq edir.<br>**FTN 5.** Sözlərin məna qruplarını, yaranma yollarını qruplaşdırır və müqayisə edir;<br>**FTN 6.** Leksik-semantik, frazeoloji, onomastik vahidləri təhlil edib ümumiləşdirmələr apaır; |
| **İF-B06.3**<br><br>Müasir Azərbaycan dili - 3 | **FTN 1.** Azərbaycan dilinin qrammatikasının ümumi strukturunu tanıyır;<br>**FTN 2.** Leksik, semantik, morfoloji və sintaktik prinsipləri müəy-yənləşdirir və onların qarşılıqlı əlaqəsini şərh edir;<br>**FTN 3.** Əsas və köməkçi nitq hissələrinə daxil olan sözlərin qrammatik xüsusiyyətlərini, onların quruluş və s. cəhətlərini əlaqələndirir;<br>**FTN 4.** Azərbaycan dilində sözyaratma üsullarını əlaqələndirərək təsnifatını verir;<br>**FTN 5.** Nitq hissələrinin təsnifini və kök, o cümlədən şəkilçi morfemləri müəyyən edir;<br>**FTN 6.** Köməkçi nitq hissələrini onları əsas nitq hissələrindən fərqləndirən yaxınlaşdıran cəhətləri əlaqələndirir, sintez edir. |
| **İF-B06.4**<br><br>Müasir Azərbaycan dili - 4 | **FTN 1.** Dilin qrammatik quruluşunun özəlliklərimi şərh edir;<br>**FTN 2.** Sadə və qarışıq tipli mürəkkəb cümlələrin infromasiya mübadiləsi zamanı rolunu fərqləndirir;<br>**FTN 3.** Şifahi nitqdə cümlənin məqsəd və intonasiyaya görə növlərindən istifadə imkanlarını nümayiş etdirir;<br>**FTN 4.** Dilin sintaktik quruluşu ilə bağlı məlumatları sintez edir;<br>**FTN 5.** Nitqin hər iki növündə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz və birləşmələri müqayisə edir və əlaqələndirir;<br>**FTN 6.** Qrammatik bilik və bacarıqlardan əməli yazı növlərində peşəkarlıqla istifadə edir. |

| | |
|---|---|
| **İF-B07**<br><br>Azərbaycan dilinin tədrisi metodikası | **FTN 1.** Azərbaycan dili üzrə əsas və alt standartları fərqləndirir, dərslikləri elmi və metodik cəhətdən təhlil edir,<br>**FTN 2.** Azərbaycan dili dərslərində hər bir mövzunun xarakterik xüsusiyyətini təyin edir və əqli nəticə çıxarır;<br>**FTN 3.** Hər bir dərsə uyğun planlaşdırma aparmağı, əlavə resurslar hazırlayır və onlardan yaradıcılıqla istifadə edir;<br>**FTN 4.** Hər bir mövzunun tədrisi ilə əlaqədar müxtəlif xarakterli çalışmalar hazırlayır,<br>**FTN 5.** Azərbaycan dili üzrə təlim materiallarını digər fənlərlə (ədəbiyyat, tarix, xarici dil və s. fənlərlə) inteqrasiya edir;<br>**FTN 6.** Azərbaycan dilinə aid bilik, bacarıq və vərdişləri meyarlara və standartlara əsasən düzgün qiymətləndirir, yekun nəticəyə gəlir. |
| **İF-B08**<br><br>Ədəbiyyatşünaslığa giriş | **FTN 1.** Bədii ədəbiyyatın qanunauyğunluqlarını estetik hadisə kimi dərkinə münasibt bildirir;<br>**FTN 2.** Ədəbiyyatın başqa incəsənət sahələri və elmlər arasındakı əlaqələrini dərk edir və bunu bədii mətnə tətbiqdə üzə çıxarmaq imkanlarını qiymətləndirir;<br>**FTN 3.** Ədəbiyyat və insan, ədəbiyyat və cəmiyyət, ədəbiyyat və ideologiya, ədəbiyyatda istedadın rolunu dərk etməyn elmi əsaslarını şərh edir;<br>**FTN 4.** Bədii ədəbiyyat haqqında nəzəri biliklər ədəbiyyata müstəqil münasibət imkanları yaradır, onda müstəqil fikir yürütmək bacarığı formalaşdırır;<br>**FTN 5.** Ədəbiyyatın nəzəri əsasları ilə tanışlıq sayəsində fəlsəfəsi barədə fikir yürüdür;<br>**FTN 6.** Bədii nümunələrin mövzusunu, sənətkar qayəsini, ideya-bədii xüsusiyyətlərini tam təsnifatı ilə izah edir. |
| **İF-B09**<br><br>Şifahi xalq ədəbiyyatı | **FTN 1**. Xalq ədəbiyyatının etnomədəni sistemin ən möhtəşəm qaynağı olması ilə bağlı sistemli, həm də təfərrüatlı bilgini ümumiləşdirir;<br>**FTN 2**. İbtidai düşüncənin, ilkin təsəvvürlərin, toplumun sənət və mədəniyyət kodlarının ümumi məzmun qatları ilə bağlı amilləri şərh edir;<br>**FTN 3.** Mifdən eposa gəlişin dinamikasını və etnos təsəvvüründə etnik sistemin mükəmməllik konseptinin nələrlə səciyyələnməsini dəyərləndirir;<br>**FTN 4**. Növ və janr şəbəkəsində tarixi prosesin axarını, nitq janrlarının çeşidlilik mənzərəsini, kanonik sistemin mükəmmələşmə prosesini qiymətləndirir;<br>**FTN 5.** Xalq ədəbiyyatı haqqında elmin yaranması, formalaşması və tarixi haqqında bütöv bir sahəni şərh edir;<br>**FTN 6.** Müasir dünya düzənində özünüdərkin, xalqların taleyində mənəvi dəyərlərin, mənsubluğun, etnik sistemin rolunun aparıcılığını aydınlaşdırır. |

| | |
|---|---|
| **İF – B10.1**<br><br>Azərbaycan ədəbiyyatı tarixi-1 | **FTN 1.** Yazılı ədəbiyyat və onun qədim dövrü, ilkin yazılı nümunələrin dövr, zaman və mühit baxımından nələrlə səciyyələnməsi məsələsini sistemli şəkildə analiz edir;<br>**FTN 2.** Azərbaycan ədəbiyyatının dövrləşməsi, onu şərtləndirən amillər, tarixi-mədəni prosesin dinamik mənzərəsini şərh edir;<br>**FTN 3**. Azərbaycan ədəbiyyatının Qədim dövrünün türkdilli qaynaqlarını, Şərq mədəni təsəvvürləri anlamında hansı faktura ilə xarakterizə olunmasını dəqiqləşdirir;<br>**FTN 4**. Özgə dildə yazmanın (ərəb və fars dilli Azərbaycan ədəbiyyatı nəzərdə tutulur) səbəb və mahiyyətini, tarixi-siyasi vəziyyətin bunu bir zərurətə çevirməsini müəyyənləşdirir;<br>**FTN 5**. Ədəbi-nəzəri-fikirdə özünə geniş yer alan bu dövrün ümumi mahiyyətində duranları bir bütöv olaraq dəyərləndirir;<br>**FTN 6**. Yazılı ədəbiyyat mühiti timsalında ədəbi-mədəni axarın ümumi dinamikası və zənginlik mənzərəsi haqqında dolğun təsəvvürə malik olduğuna münasibət bildirir. |
| **İF –B10.2**<br><br>Azərbaycan ədəbiyyatı tarixi-2 | **FTN 1**. Orta əsrlər ədəbiyyatının Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ olması və dövrləşmədə bir mərhələ olaraq sərgilələdiyi məzmun haqqında bütöv təsəvvür formalaşdırır;<br>**FTN 2**. Anadilli ədəbiyyatın ilkin yazılı nümunələrinin bu dövrə düşməsi, dövrün ictimai-siyasi, tarixi-mədəni mənzərəsi və s. məsələlər konkret nümunələr əsasında aydınlaşdırır;<br>**FTN 3**. Ərəbdilli və farsdilli Azərbaycan ədəbiyyatı ənənəsində ana dilində yazıb yaratmanın ümumi mahiyyətinə münasibət bildirir;<br>**FTN 4**. Qədim dövr Azərbaycan ədəbiyyatının orta əsrlər ənənəsində tarixi-mədəni axarında hansı səviyyədə görünüşü haqqında mükəmməl biliyi dəyərləndirir;<br>**FTN 5**. Heca vəznli şeirin və anadilli ədəbiyyatın milli müəyyənlik müstəvisində aparıcı funksiyasını analiz edir;<br>**FTN 6**. Orta əsrlər Azərbaycan ədəbiyyatının fundamental mənzərəsi və qaynaqları kontekstində mükəmməl təsəvvür formalaşdırır |
| **İF –B10.3**<br><br>Azərbaycan ədəbiyyatı tarixi-3 | **FTN 1**. Ədəbiyyatının ümumi inkişaf dinamikası haqqında bitkin təsəvvürə münasibət bildirir;<br>**FTN 2**. XIX əsr Azərbaycan ədəbiyyatının mərhələ kimi məzmun və mahiyyətini, ədəbiyyat rarixindəki yerini özü üçün aydınlaşdırır;<br>**FTN 3**. Maarifçilik hərəkatının və yeni ədəbi mərhələnin məzmun və mündəricəsini ümumiləşdirir;<br>**FTN 4**. İctimai-siyasi mühitin, Azərbaycanın Rusiya tərəfindən işğalının ədəbi mədəni prosesə təsiri, baş verənlərə münasibəti ilə bağlı mükəmməl biliyi dəyərləndirir;<br>**FTN 5**. Milli mətbuatın, yeni tipli məktəblərin, dərsliklərin, uşaq ədəbiyyatının yaranması probleminin həllinin başlanğıcının bu dövrdə qoyulmasını şərh edir;<br>**FTN 6**. Ayrı-ayrı bölgələrdə yaranan ədəbi məclislərin fəaliyyətinin məram-məqsədi ilə bağlı mükəmməl biliyi ümumiləşdirir;<br>**FTN 7**. Yaradıcılıq axtarışlarında üslub, forma, təhkiyə və s. məsələlərin zənginləşmə faktları ilə əlaqədar sistemli təsəvvürü qiymətləndirir. |

| | |
|---|---|
| **İF –B10.4**<br><br>Azərbaycan ədəbiyyatı tarixi-4 | **FTN 1**. XX əsr Azərbaycan ədəbiyyatının ictimai-siyasi, ədəbi-mədəni mühiti təfərrüatlı əks etdirə bilmək imkanlarını şərh edir, bu dövr ədəbiyyatının əhatələdiyi dövr və siyasi mühitdə baş verənlərin ədəbi mühitə təsiri ilə bağlı olanları, ədəbi axın və meyillərin məzmun və mahiyyətini müəyyənləşdirir;<br>**FTN 2**. Müxtəlif tipli mətbu orqanlarının ictimai-mədəni mühitdə apardığı mücadilənin məzmununu şərh edir;<br>**FTN 3**. Ayrı-ayrı şəxsiyyətlər timsalında ədəbiyyatda demokratik qanadın məqsəd və məramını şərh edir;<br>**FTN 4**. Realist maarifçi ədəbiyyatın, ədəbiyyatın romantik qolunun nümayəndələrinin sənət kriteriyasında dayananların nələrlə səciyyələnməsi ilə əlaqədar təsəvvürü dəyərləndirir;<br>**FTN 5**. Sovetlər dönəmi ədəbiyyatının sənət və düşüncə kriteriyası ilə bağlı bilgiləri analiz edir;<br>**FTN 6**. Poeziyanın, nəsrin, dramaturgiyanın, uşaq ədəbiyyatının, mətbuatın ümumi axarı və problemləri ilə bağlı təsəvvürü ümumiləşdirir;<br>**FTN 7**. 60-cı illərin Azərbaycan ədəbiyyatının dinamikasında mərhələ səciyyəsinin ümumi yanaşmalarda nələrlə xarakterizə olunmasını dəyərləndirir. |
| **İF-B11.1**<br><br>Dünya ədəbiyyatı-1 | **FTN 1**. Qərb ədəbiyyatı haqqında sistemli təsəvvür əldə edir, onun bəşəri dəyərlərə malik olduğuna münasibət bildirir;<br>**FTN 2**. Qərb xalqları ədəbiyyatının mövzu və mündəricat baxımından sərgilədiyi məzmunun mahiyyətini şərh edir;<br>**FTN 3**. Qərb ədəbiyyatının dünya ədəbiyyatı tarixində xüsusi mərhələ olduğunu dəyərləndirir;<br>**FTN 4**. Qərb xalqları ədəbiyyatının konkret tarixi dönəmlərdə inkişaf istiqamətlərini analiz edir;<br>**FTN 5**. Bu ədəbiyyatın ideya-estetik xüsusiyyətləri barədə əldə etdiyi biliyi ümumiləşdirir;<br>**FTN 6.** Qərb dünyası ədəbiyyatının müxtəlif ədəbi metod və cərəyanlarını analiz edir;<br>**FTN 7**. Dünya ədəbiyyatı sırasında Qərb ədəbiyyatının yerini və dəyərini müəyyənləşdirir. |
| **İF-B11.2**<br><br>Dünya ədəbiyyatı -2 | **FTN 1**. Türk və Şərq xalqları ədəbiyyatının zənginliyini qiymətləndirir;<br>**FTN 2**. Türk və Şərq xalqları ədəbiyyatının dünya ədəbiyyatı və mədəniyyəti tarixində yüksək dəyərə malik olduğunu şərh edir;<br>**FTN 3**. Türk və Şərq xalqları ədəbiyyatının dövrlər üzrə fundamental mənzərəsi və qiymətli qaynaqlarını dəyərləndirir;<br>**FTN 4**. Dünya ədəbiyyatı tarixində bu ədəbiyyatın yerini və mövqeyini müəyyənləşdirir;<br>**FTN 5**. Bu ədəbiyyatın ümumi inkişaf dinamikası haqqında ümumi təsəvvürə münasibət bildirir;<br>**FTN 6**. Türk və Şərq xalqları ədəbiyyatının janrları, növləri və formaları haqqında ətraflı biliyi ümumiləşdirir. |

| | |
|---|---|
| **İF-B12**<br><br>Ədəbiyyatın tədrisi metodikası | **FTN 1.** Ümumtəhsil məktəblərində ədəbiyyat tədrisinin təşkili və fənnin mənimsənilməsi ilə bağlı müasir elmi-metodik tövsiyələri və praktik bacarıqları tətbiq edir.<br>**FTN 2**. Ədəbi və bədii-estetik inkişafı, məntiqi, tənqidi, yaradıcı təfəkkürün formalaşmasını təmin edən yaradıcı xarakterli tapşırıqlar müəyyənləşdirir, tətbiqi yollarını şərh edir.<br>**FTN 3**. Nitq inkişafı üzrə mənimsədiklərini geniş kommunikativ bacarıqlara çevirməyi bacarır.<br>**FTN 4.** Ədəbiyyat tədrisinin qarşısında duran problemləri aşkar edir, onların fərqli həlli yollarını müəyyənlşdirir və dəyərləndirir.<br>**FTN 5.** Təhsil islahatının hüquqi əsasını təşkil edən sənədlərin mahiyyətini izah edir, başlıca prinsiplərini tətbiq edir.<br>**FTN 6.** Təlimi vəzifələrin və problemlərin həlli üçün müvafiq elmi-nəzəri məlumat, texnologiya, metod, iş növü və formalarını seçir, onlardan istifadə edir, bunların əsasında gözlənilən nəticələri müəyyənləşdirir və qiymətləndirir.<br>**FTN 7.** İxtisas üzrə təklif olunmuş müxtəlif layihələrin həyata keçirilməsində təşəbbüskarlıq, məsuliyyət, liderlik və komandada işləmək bacarıqlarını nümayiş etdirir.<br>**FTN 8.** Sinifgənxaric oxuda və məktəbdənkənar iş prosesində mənim-sədiklərini tədris materialları ilə əlaqələndirir, ümumiləşdirmə aparır, nəticə çıxarır.<br>**FTN 9.** Özünüqiymətləndirmə və özünütəhsillə bağlı mənim-sədiklərini tətbiq edir, ədəbi bilik və bacarıqların səviyyəsini müasir qiymətləndirmə mexanizmlərini vasitəsilə müəyyənləşdirir. |
| **İF-B13**<br><br>İfadəli oxu | **FTN 1**. İfadəli oxunun təlim və tərbiyəvi əhəmiyyətini aydınlaşdırır, tətbiqi yollarını şərh edir.<br>**FTN 2**. İfaçının düzgün və dəqiq nitqi üçün vacib olan şərtləri izah edir, qiymətləndirir.<br>**FTN 3.** Müəllif fikrinin dəqiq və aydın çatdırılması şərtlərini müəyyənləşdirir, emosional-obrazlı ifadəliliyin mahiyyətini dəyərləndirir.<br>**FTN 4.** Bədii nümunələrin oxusu üçün vacib olan mərhələləri fəqlndirir, praktik olaraq reallaşdırır.<br>**FTN 5**. Müxtəlif ədəbi növ və janrda olan əsərlərin oxu xüsusiyyətlərini izah edir, tətbiq etməyi bacarır.<br>**FTN 6.** Fərqli mövzu, növ və janrda olan əsərləri emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun ifa edir, ifaları həqiqi meyarlarla qiymətləndirir. |

| | |
|---|---|
| **ATMF-B01**<br><br>Ədəbiyyat nəzəriyyəsi | **FTN 1.** Müxtəlif ədəbi növdə olan mürəkkəb kompozisiyalı əsərlərin məzmununu analiz edir, mənəvi dəyərlər, fakt və hadisələrlə, obrazlarla bağlı yazıçı mövqeyini dəyərləndirir;<br>**FTN 2.** Əsərin mövzusunu, ideyasını, başlıca problemini və konfliktini müəyyənləşdirir, bağlı olduğu dövrün ictiami-siyasi, estetik yanaşmalarından çıxış etməklə əsərə münasibət bildirir;<br>**FTN 3.** Çoxsüjetli, mürəkkəb kompozisiyalı epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə qiymətləndirir;<br>**FTN 4.** Şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə müxtəlif üsullardan (nağıletmə, təsvir, nümayiş) istifadə etməklə ümumiləşdirmələr aparır;<br>**FTN 5.** Müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini dəlillərlə, məntiqi ardıcıllığı gözləməklə ümumiləşdirir;<br>**FTN 6.** Müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsini dəyərləndirir. |
| **ATMF-B02**<br><br>Azərbaycan dilindən praktikum | **FTN 1.** Dil sistemləri haqqında daha geniş təsəvvürə malik olur, onların arasında əlaqələndirmə aparır;<br>**FTN 2.** Tətbiqi və nəzəri dilçilik şöbələrini fərqləndirir, dilçilik şöbələrini digər elmlərlə, şöbələrlə kontaktda öyrənir, müqayisələr aparır;<br>**FTN 3.** Fonetik normaları - orfoqrafik və orfoepik normaları şifahi və yazılı nitqdə düzgün tətbiq edir;<br>**FTN 4.** Ümumişlək olmayan sözləri-terminlər, dilaekt sözlər, köhnəlmiş və yeni sözləri xüsusiyyətlərinə görə fərqləndirir;<br>**FTN 5.** Təqdim olunmuş müxtəlif mövzularda tək, cütlüklərlə və ya qruplarda kommunikasiya qurur;<br>**FTN 6.** Nitqin hər iki formasında (monoloji və dialoji) nitq bacarıqlarını formalaşdırır. |
| **ATMF-B03**<br><br>Ədəbiyyatdan praktikum | **FTN 1.** Bədii mətni müxtəlif struktur səviyyələrində ( söz, cümlə, mətn) başa düşdüyüyünü nümayiş etdirir, mətndəki mühüm informasiyanı (məqamları), başlıca fikri, mətnaltı mənanı müəyyənləşdirir və dəyərləndirir.<br>**FTN 2.** Müxtəlif vəznli bədii nümunələri kompozisiya, dil, üslub baımından təhlil edir;<br>**FTN 3.** Mənəvi dəyərlər, fakt və hadisələr, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;<br>**FTN 4.** Şifahi təqdimatlarda, müxtəlif müzakirələrdə ümumiləşdirmələr aparırı, nəticələr çıxarır;<br>**FTN 5.** Bədii mətnin məzmununu, hadisələri, obrazlar sistemini idraki, emosional və estetik baxımdan aydınlaşdırır və əsaslandırılmış şərh edir.<br>**FTN 6.** Tənqidi təhlil metodlarından istifadə edir ədəbiyyatşünaslıq elminin müasir nailiyyətlərini qiymətləndirir. |

| | |
|---|---|
| **ATMF-B04**<br><br>Əski Azərbaycan yazısı | **FTN 1.** Qısa mətnləri oxuyub əsas ideyasını müəyyənləşdirir;<br>**FTN 2.** Oxuduqları və öyrəndikləri mətnlər əsasında dialoq qurur;<br>**FTN 3.** Lüğət və sorğu kitablarından istifadə edir;<br>**FTN 4.** Əski Azərbaycan yazısı ilə fars əlifbasının fərqli və oxşar cəhətlərini şərh edir;<br>**FTN 5.** Salamlaşma, xudahafizləşmə, hal-əhval soruşma, minnətdarlıq, xahişlə bağlı fikirlərini ifadə edir;<br>**FTN 6.** Klassik ədəbi nümunələr əsasında ümumiləşdirmələr aparır. |
| **ATMF-B0**6<br><br>Türk dillərinin müqayisəli qrammatikası | **FTN 1.** Dillərin təsnifində morfoloji və geneoloji meyarları, türk dillərinin qohumluğu barədə nəzəriyyələri, türk dillərinin tarixi, yayılma arealı, fonetik, leksik, qrammatik quruluşu və müasir türk dillərinin səciyyəvi xüsusiyyətləri barədə məlumatları əlaqələndirir.<br>**FTN 2.** Türk dillərinin tarixini və müasir türk dillərini müqayisə edir, fərqləndirir, oxşar və fərqli xüsusiyyətlərini izah edir.<br>**FTN 3.** Türk dillərinin qohumluğu barədə müasir elmi münasibət və baxışları müəyyənləşdirir, faktlar və prinsipləri tətbiq edir.<br>**FTN 4.** Müasir türk dillərinin fonetik, leksik, qrammatik quruluşunu təhlil və müqayisə edir, ümumiləşdirməlr aparır.<br>**FTN 5.** Müasir türk dillərinə aid dil faktlarını bir araya gətirir, uyğun və fərqli sözlərin lüğətini tərtib sintez edir.<br>**FTN 6.** Türk dillərinə aid tarixi və müasir məlumatları təhlil edir, əsaslandırır və münasibət bildirir. |
| **ATMF-B07**<br><br>1.Orfoqrafiya və orfoepiya təlimi | **FTN 1.** Orfoqrafiya və orfoepiya təliminin metodik əsaslarını, aktual problemlər üzrə bilikləri şərh edir;<br>**FTN 2.** Orfoqrafiya və orfoepiyanın qarşılıqlı əlaqəsini, onların inteqrativ tədrisinin əhəmiyyətini izah edir, nümunələr göstərməklə fikrini əsaslandırır;<br>**FTN 3.** Orfoqrafiya və orfoepiya qaydalarının təlim və tətbiq prinsiplərini praktik tətbiq edir;<br>**FTN 4.** Orfoqrafiya və orfoepiya təliminin xarakterik xüsusiyyətlərini təhlil edir, müqayisə əsasında ümumiləşdirir;<br>**FTN 5.** Orfoqrafik və orfoepik bilikləri ümumiləşdirir, inteqrasiya edir, digər bölmələrlə əlaqələndirməklə fikrini təsdiqləyir;<br>**FTN 6.** Fənn üzrə təlim nailiyyətlərini qiymətləndirmək üçün standartlara uyğun meyarlar seçir və yekun nəticə əldə edir. |
| 2. Azərbaycan dilində məzmunxətlərarası inteqrasiya | **FTN 1.** Məzmun xətləri haqqında mənimsədiyi bilikləri praktik nümayiş etdirir;<br>**FTN 2.** Məzmun xətləri arasında inteqrasiyanın yaradılmasının vacibliyini şərh edir;<br>**FTN 3.** Verilən tapşırığa əsasən məzmun xətləri arasında inteqrasiya yaradaraq təhlil aparır;<br>**FTN 4.** Ayrı-ayrı hissələrə bölünmə və bu hissələrin tama aid olduğu barədə əqli nəticə çıxarır;<br>**FTN 5.** Azərbaycan dili üzrə təlim materiallarını digər fənlərlə inteqrasiya edir, yeni fikirlər və ideyalar irəli sürür;<br>**FTN 6.** Şagirdlərin təlim nailiyyətlərini qiymətləndirmək üçün standartlara uyğun meyarlar seçir. |

| | |
|---|---|
| | |
| **ATMF-B08**<br><br>1. Azərbaycan mühacirət ədəbiyyatı | **FTN 1.** Mühacirət ədəbiyyatının XX əsr ədəbi-bədii fikri zənginləşdirən və çoxçeşidli edən fənlərdən biri olduğunu dəyərləndirir;<br>**FTN 2.** Mühacir ədiblərin yaradıcılığında vətən və vətənçilik idealları yaşadıldığını və bu onların yaradıcılığınnı əsas hissəsini təşkil etdiyini ümumiləşdirir;<br>**FTN .** Mühacirət ədəbiyyatının zəngin bədii sənət nüm unələrində xalqımızn milli istiqlal duyğuları və müstəqillik ideyalarının məharətlə təsvir olunduğunu müəyyənləşdirir;<br>**FTN 4.** Mühacirətdə yaranan ədəbi-bədii nümunələr dövrün ictimai-siyasi, ədəbi-mədəni həyatı ilə bağlı bilikləri zənginləşdiridiyini şərh edir;<br>**FTN 5.** Mühacirət ədəbiyyatının görkəmli nümayəndələrinin elmi-ədəbi və bədii yaradıcılığı dəyərini və qiymətini analiz edir. |
| **ATMF-B09**<br><br>1. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı | **FTN 1**. Müstəqillik dövrü ədəbiyyatın ümumi problemləri və yaradıcılıq axtarışları ilə əlaqədar bütöv bir dövrə münasibət bildirir;<br>**FTN 2**. Millilik və milli oyanış, azərbaycançılıq baxımından ədəbi prosesdə baş verənləri şərh edir;<br>**FTN 3**. Vətən müharibəsi ədəbiyyatı haqqında əsərlərin ümumi mənzərəsini qiymjətləndirir;<br>**FTN 4.** Ədəbi tənqidin ədəbi prosesdə yeri və rolu haqqında konkret faktlara münasibət bildirir<br>**FTN 5.** Bədii əsəri milli, tarixi və cağdaş ədəbi proseslərlə sıx əlaqədə dəyərləndirmək bacarığı əldə edir;<br>**FTN 6.** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatındakı material zənginliyini, yazıçı üslubunu, metodunu, sənətkarın mənsub olduğu ədəbi cərəyanın estetik tələblərini dəyərləndirir. |
| **ATMF-B10**<br><br>1. Azərbaycan dilçilik tarixi | **FTN 1**. Azərbaycan dilinin tarixini tarixi-linqvistik müstəvidə qohum və qohum olmayan dillərlə müqayisəli şəkildə sintez edir;.<br>**FTN 2**. Türkoloji müstəvidə Azərbaycan dilçiliyinin inkişaf tarixini mərhələlər üzrə şərh edir;<br>**FTN 3**. Ərəbdilli, farsdilli və anadilli ədəbi nümunələrdə dilimizin normalarını müşahidə və müqayisə edir, yaranma səbəblərini, inkişaf tarixini ədəbiyyatşünaslıqla inteqrasiya şəraitində analiz edir;<br>**FTN 4**. Publisistikanın, mətbuatın, satirik üslubun, realizm və romantizmin yaranmasının təsnif və tədqiq edərək fərqləndirir;<br>**FTN 5**. Müstəqillik illərində dildə baş verən yeniləşmələri, inkişafı izləyir, norma və üslubların müasir beynəlxalq aləmə inteqrasiyasını qiymətləndirir;<br>**FTN 6.** Azərbaycan dilinin işləndiyi dövlətlərin strukturunu fərqləndirir. |
| 2. Üslubiyyat | **FTN 1**. "Üslubiyyat" və "üslub" terminləri arasında fərqləri müəyyən edir; dilin lüğət tərkibini təşkil edən söz və ifadələrin ədəbi dil və ümumişlək dil qatına aid olduğunu bilir.<br>**FTN 2.** Lüğət tərkibinin üslubi layları haqqında biliyə malik olaraq, bədii dil lüğəti, danışıq dili lüğəti haqqında tam təsnifatı izah edir.<br>**FTN 3.** Leksik, sintaktik və fonetik bədii vasitələri onları bir-birindən mətn daxilində və kontekstdən kənar seçir. |

| | |
|---|---|
| | **FTN 4.** Dilin funksonal üslublarını təsnif və təqdid edərək fərqləndirir.<br>**FTN 5.** Mətnin lüğət tərkibini, üslubi vasitələri və ən mətnin hansı funksional üslubda olduğunu ayırd edərək qiymətləndirir |
| **ATMF-B11**<br><br>Bədii mətnin interpretasiyası | **FTN 1.** Bədii mətnin interpretasiyasının əsas anlayışlarından və tədqiqatçılıq metodlarını sintez edir.<br>**FTN 2.** Bədii mətnin yaradılmasının əsas prinsiplərini, məzmun və forma vəhdətini təmin edən mexanizmlərini fərqləndirir.<br>**FTN 3.** Müasir ədəbiyyatşünaslıqda bədii əsərin təhlilinin və interpretasiyasının əsas istiqamətlərini, Azərbaycan söz sənətindəki ədəbi cərəyanları, yaradıcılıq metodlarını bilir və konkret mətndə fərqləndirir.<br>**FTN 4.** Zəruri informasiyanı əldə etmək üçün məlumat mənbələrindən və axtarış sistemlərindən istifadə edir, mətnin şifahi və yazılı interpretasiyası əsasında öz mühakimələrini təqdim etməyin optimal yollarını müəyyənləşdirir.<br>**FTN 5.** Bədii və ədəbiyyatşünaslıq mətninin interpretasiyasının xüsusiyyətlərini konkret mətnlər üzərində tətbiq edir.<br>**FTN 6.** Bədii mətnin dil, üslub, sənətkarlıq xüsusiyyətlərini müəyyənləşdirir və müəllif niyyətinin açılmasında rolunu aydınlaşdırır. |